**UDC:** 070,49
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 492
10.33864/2617-751X.2026.v9.i2.572-585

# STRATEGIC ANALYSIS OF THE BALKAN REGION THROUGH THE SWOT METHOD

**Ulfar Mammadli***

**Abstract.** This article systematically analyzes the contemporary geopolitical and security environment of the Balkan region within the SWOT (Strengths, Weaknesses, Opportunities, and Threats) analytical framework. The primary objective of the research is to identify the interaction between the region's internal structural characteristics and external geopolitical factors, as well as to assess existing risks. The study demonstrates that the Balkans possess significant advantages due to their strategic geographical location, decisive role in energy and logistics corridors, and the level of integration into Euro-Atlantic structures. However, issues such as ethnic fragmentation, post-conflict socio-political traumas, systematic corruption, and "brain drain" persist as fundamental structural weaknesses hindering the region's sustainable development. The research finds that while the prospect of European Union membership and regional cooperation platforms (such as CEFTA and the Berlin Process) create substantial opportunities, the intensifying competition among major powers (USA, Russia, and China), disinformation campaigns, and China's "debt-trap diplomacy" pose serious risks to the region's sovereignty. The application of the SWOT method allows for a comprehensive assessment of both the Balkans' strategic potential and their internal instability trends. In conclusion, it is emphasized that the future stability of the Balkans depends directly on increasing the institutional resilience of regional states against external manipulations and implementing inclusive political models based on ethnic reconciliation.

**Keywords:** The Balkans, SWOT analysis, geopolitics, regional security, "debt-trap", ethnic fragmentation

---

* PhD student at the Department of Modern and ContemporaryHistory of European and American Countries, Baku State University; Baku, Azerbaijan
E-mail: ulfermemmed@gmail.com
https://orcid.org/0000-0002-5389-1869
**To cite this article:** Mammadli, U. [2026]. STRATEGIC ANALYSIS OF THE BALKAN REGION THROUGH THE SWOT METHOD. *“Metafizika” journal, 9*(2), pp.572-585.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.572-585
***Article history:***
**Received**: 10.03.2026 **Revised**: 13.04.2026 **Accepted**: 04.05.2026 **Published**: 15.06.2026
**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

*“Metafizika” Journal* *p-ISSN 2616-6879; e-ISSN 2617-751X*
*Vol 9, issue 2, serial 38, 2026. pp.572-585* *AcademyGate Publishing (ISNI: 0000000514175052)*
**УДК:** 070,49
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 е)64
**MJ №** 492
10.33864/2617-751X.2026.v9.i2.572-585

# СТРАТЕГИЧЕСКИЙ АНАЛИЗ БАЛКАНСКОГО РЕГИОНА С ИСПОЛЬЗОВАНИЕМ МЕТОДА SWO

**Ульфар Мамедли***

**Абстракт.** В данной статье на основе аналитической базы SWOT (сильные и слабые стороны, возможности и угрозы) проводится системный анализ современной геополитической среды и среды безопасности Балканского региона. Основная цель исследования заключается в определении взаимосвязи между внутренними структурными особенностями региона и внешними геополитическими факторами, а также в оценке существующих рисков. В статье показано, что Балканы обладают значительными преимуществами благодаря своему стратегическому географическому положению, решающей роли в энергетических и логистических коридорах и уровню интеграции в евроатлантические структуры. Однако такие проблемы, как этническая фрагментация, постконфликтные социально-политические травмы, систематическая коррупция и «утечка мозгов», продолжают оставаться основными структурными недостатками, ограничивающими устойчивое развитие региона. В результате исследования установлено, что, хотя перспективы членства в Европейском союзе и платформы регионального сотрудничества (CEFTA, Берлинский процесс) создают важные возможности, растущая конкуренция между великими державами (США, Россия, Китай), дезинформационные кампании и китайская дипломатия «долговой ловушки» формируют серьезные риски для суверенитета региона. Применение метода SWOT позволяет комплексно оценить как стратегический потенциал Балкан, так и тенденции внутренней нестабильности. В заключении подчеркивается, что будущая стабильность Балкан напрямую зависит от повышения институциональной устойчивости государств региона к внешним манипуляциям и внедрения инклюзивных политических моделей, основанных на этническом примирении.

**Ключевые слова:** Балканы, SWOT-анализ, геополитика, региональная безопасность, «долговая ловушка», этническая фрагментация

---

* Докторант кафедры новой и новейшей истории стран Европы и Америки Бакинского государственного университета; Баку, Азербайджан
E-mail: ulfermemmed@gmail.com
https://orcid.org/0000-0002-5389-1869

**Цитировать статью:** Мамедли, У. [2026]. СТРАТЕГИЧЕСКИЙ АНАЛИЗ БАЛКАНСКОГО РЕГИОНА С ИСПОЛЬЗОВАНИЕМ МЕТОДА SWO. *Журнал «Metafizika»*, *9*(2), с.572-585.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.572-585
***История статьи:***
**Поступила**: 10.03.2026 **Переработана**: 13.04.2026 **Принята**: 04.05.2026 **Опубликована**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 070,49
**KBT:** 63.3(2)6-6
**MJ №** 492
10.33864/2617-751X.2026.v9.i2.572-585

# BALKAN REGİONUNUN SWOT METODU İLƏ STRATEJİ TƏHLİLİ

**Ülfər Məmmədli***

**Abstrakt.** Bu məqalədə Balkan regionunun müasir geosiyasi və təhlükəsizlik mühiti SWOT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) analitik çərçivəsi əsasında sistemli şəkildə təhlil edilir. Tədqiqatın əsas məqsədi regionun daxili struktur xüsusiyyətləri ilə xarici geosiyasi faktorlar arasındakı qarşılıqlı əlaqəni müəyyən etmək və mövcud riskləri qiymətləndirməkdir. Məqalə də göstərilir ki, Balkanlar strateji-coğrafi mövqeyi, enerji-logistika dəhlizlərindəki həlledici rolu və Avratlantik strukturlara inteqrasiya səviyyəsi ilə mühüm üstünlüklərə malikdir. Lakin etnik fragmentasiya, münaqişə sonrası sosial-siyasi travmalar, sistematik korrupsiya və "beyin axını" kimi problemlər regionun dayanıqlı inkişafını məhdudlaşdıran əsas struktur zəiflikləri kimi qalmağa davam edir. Tədqiqat nəticəsində müəyyən edilir ki, Avropa İttifaqına üzvlük perspektivi və regional əməkdaşlıq platformaları (CEFTA, Berlin Prosesi) mühüm imkanlar yaratsa da, böyük güclər (ABŞ, Rusiya, Çin) arasında artan rəqabət, dezinformasiya kampaniyaları və Çinin tətbiq etdiyi "borc tələsi" diplomatiyası regionun suverenliyi üçün ciddi risklər formalaşdırır. SWOT metodunun tətbiqi Balkanların həm strateji potensialını, həm də daxili qeyri-sabitlik meyllərini kompleks şəkildə qiymətləndirməyə imkan verir. Yekun olaraq qeyd edilir ki, Balkanların gələcək sabitliyi region dövlətlərinin xarici manipulyasiyalara qarşı institusional dayanıqlılığını artırmasından və etnik barışığa əsaslanan inklüziv siyasi modellərin tətbiqindən birbaşa asılıdır.

**Açar sözlər:** Balkanlar, SWOT təhlili, geosiyasət, regional təhlükəsizlik, "borc tələsi", etnik fragmentasiya

* Bakı Dövlət Universiteti, Avropa və Amerika ölkələrinin yeni müasir tarixi kafedrasının doktorantı; Bakı, Azərbaycan
E-mail: ulfermemmed@gmail.com
https://orcid.org/0000-0002-5389-1869
**Məqaləyə istinad:** Məmmədli, Ü. [2026]. BALKAN REGİONUNUN SWOT METODU İLƏ STRATEJİ TƏHLİLİ. *“Metafizika” jurnalı, 9*(2), səh.572-585.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.572-585
**Məqalənin tarixçəsi:**
**Daxil olub**: 10.03.2026 **Yenidən baxılıb**: 13.04.2026 **Təsdiqlənib**: 04.05.2026 **Dərc olunub**: 15.06.2026
**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Balkanlar qərbdə Adriatik, cənubda Aralıq, şərqdə isə Qara dəniz və Egey dənizi ilə əhatə olunmuş strateji bir yarımadadır. Regionun şimal sərhədləri şərti olaraq Dunay, Sava və Kolpa çayları ilə müəyyən edilir [Jelavich, 2006. Səh.1]. Lakin Balkanların sərhədlərini yalnız fiziki-coğrafi göstəricilərlə məhdudlaşdırmaq yetərli deyil. Bolqar tarixçi Maria Todorovanın vurğuladığı kimi, regionun mahiyyətini anlamaq üçün coğrafi faktorlarla yanaşı, tarixi inkişaf, mədəni transformasiyalar, etnik struktur və dini müxtəliflik kimi çoxölçülü amillərin sintezi zəruridir [Todorova, 2006. Səh.271]. Bu baxımdan bəzi ərazilər coğrafi hüdudlardan kənarda qalsa da, tarixi-mədəni təsirlərinə görə Balkanların ayrılmaz tərkib hissəsi hesab olunur. Məhz bu fiziki hüdudların və sivilizasiyalararası mədəni dərinliyin vəhdəti regionu sadəcə bir coğrafi məkan deyil, həm də qlobal güc mərkəzləri üçün əhəmiyyətli bir strateji platformaya çevirir.

Avropanın cənub-şərqində yerləşən bu region geosiyasi baxımdan sabit və dəyişkən elementlərin kəsişmə nöqtəsidir. Tarix boyu Osmanlı, Avstriya-Macarıstan və Rusiya kimi böyük imperiyaların maraqlarının toqquşduğu bu strateji zona, davamlı münaqişələrin və geopolitik rəqabətin mərkəzinə çevrilmişdir. Klassik geopolitik nəzəriyyələr də Balkanların bu strateji əhəmiyyətini təsdiqləyir. İngilis coğrafiyaçısı, İngiltərə Kral Coğrafiya İnstitutunun üzvü Halford Makinder regionu Avrasiyanın mərkəzi sahəsi olan *Heartland*-ın cənub kənarında yerləşən "daxili hilal" zonasına aid etməklə bölgənin əhəmiyyətini göstərmişdir. Alfred Mahan dəniz yollarına nəzarətin qlobal hakimiyyət üçün önəmini vurğulayaraq, Balkanların Adriatik, Egey və Qara dənizlərə çıxışı imkanını strateji üstünlük kimi dəyərləndirmişdir. Saul B.Cohen Balkanları "tampon və kilid regionlar" kateqoriyasına aid edir. Nikolas Spaykmenin *Rimland* nəzəriyyəsinə görə isə məhz bu tip sahil və keçid zonaları qlobal güc balansının müəyyən edilməsində həlledici rol oynayır [Ekinci, 2012. Səh.1286]. Nəticə etibarilə, bu fikirlər Balkanların strateji əhəmiyyətinin zamanla dəyişməyən sabit faktor olduğunu sübut edir. Lakin bu coğrafi üstünlük, eyni zamanda, regionu böyük güclərin rəqabət obyektinə çevirərək onun müasir təhlükəsizlik arxitekturasında daimi bir qeyri-müəyyənlik və risk faktoru yaradır. Klassik geopolitikanın bu nəzəri təsbitləri Soyuq müharibədən sonrakı dövrdə özünü daha kəskin şəkildə büruzə verdi.

XX əsrin sonlarında Sosialist Yuqoslaviyanın dağılması Balkanları yenidən qlobal siyasətin diqqət mərkəzinə çevirdi. Region genişmiqyaslı silahlı münaqişələr, etnik təmizləmə və humanitar böhranlarla üzləşdi. Müharibələr rəsmən başa çatsa da, etnik gərginliklər, kollektiv yaddaşdakı travmalar, zəif dövlət institutları və xarici aktorların manipulyasiyası regionda tam sabitliyin bərqərar olmasına mane olur. Bu reallıq Balkanları müasir dövrdə də yüksək riskli və həssas bir təhlükəsizlik zonası kimi saxlayır. Belə mürəkkəb geosiyasi

mənzərənin sistemli təhlili üçün inteqrativ metodoloji çərçivəyə ehtiyac duyulur. Mövcud ədəbiyyatda Balkanlar daha çox etnik münaqişələr və ya böyük güclərin rəqabəti kontekstində araşdırılsa da, bu amillərin vahid analitik modeldə birləşdirilməsi məhdud səviyyədədir. Bu baxımdan, SWOT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) metodu regionun daxili potensialını və struktur zəifliklərini xarici mühitdən irəli gələn risk və fürsətlərlə birlikdə qiymətləndirməyə imkan verən effektiv alətdir.

Bu tədqiqatın əsas məqsədi Balkan regionunun müasir təhlükəsizlik mühitini SWOT metodu əsasında təhlil etməkdir. Məqalədə aşağıdakı suallara cavab axtarılır. Balkanların strateji potensialı hansı struktur amillərlə məhdudlaşır? Region üçün hansı inkişaf imkanlarını və təhlükəli riskləri var? SWOT yanaşması bu mürəkkəb reallığı sistemləşdirməkdə nə dərəcədə səmərəlidir?

## 2.SWOT Təhlilinin Tətbiqi

Bu tədqiqatda Balkan regionunun müasir geosiyasi və təhlükəsizlik mühitinin sistemli şəkildə qiymətləndirilməsi məqsədilə SWOT (*Strengths, Weaknesses, Opportunities, Threats*) təhlil metodundan istifadə edilmişdir. Bu metod beynəlxalq münasibətlər, regional təhlükəsizlik, siyasi coğrafiya və strateji tədqiqatlar sahəsində kompleks təhlil aparmağa imkan verən effektiv metodoloji alət kimi geniş tətbiq olunur.

SWOT təhlili dörd əsas komponent üzərində qurulur:

Güclü tərəflər (Strengths): Regionun daxili resurslarını, coğrafi üstünlüklərini, institusional imkanlarını və strateji potensialını əks etdirir.

Zəif tərəflər (Weaknesses): Struktur problemləri, idarəetmə çatışmazlıqlarını, sosial-iqtisadi məhdudiyyətləri və siyasi qeyri-sabitlik yaradan daxili amilləri əhatə edir.

İmkanlar (Opportunities): Regional və qlobal mühitdə yaranan, iqtisadi inkişaf, inteqrasiya və əməkdaşlıq perspektivlərini artıran xarici faktorları ifadə edir.

Təhlükələr (Threats): Regionun təhlükəsizliyinə, siyasi sabitliyinə və davamlı inkişafına mənfi təsir göstərə biləcək daxili və xarici riskləri əks etdirir.

Metodun mənşəyi 1950-ci illərdə Harvard Universitetində aparılan empirik tədqiqatlara əsaslanır. İlkin olaraq təşkilati idarəetmə məqsədləri üçün formalaşdırılan bu metod, professorlar Corc Albert Smit və Roland Kristensen tərəfindən biznes keyslərinin təhlili məqsədilə inkişaf etdirilmişdir [Chermack, Kasshanna, 2007. Səh.386]. SWOT analizi başlanğıcda biznes sektoru üçün nəzərdə tutulsa da, hazırda beynəlxalq münasibətlər, idarəetmə, təhsil, səhiyyə və kənd təsərrüfatı kimi bir çox sahədə strateji planlaşdırma aləti kimi tətbiq olunur. Metodun əsas üstünlüyü daxili struktur xüsusiyyətləri ilə xarici geosiyasi təsirləri inteqrativ şəkildə təhlil etməyə imkan verməsidir. Bununla belə, SWOT təhlilinin müəyyən dərəcədə subyektivlik riski daşıdığı da nəzərə

alınmalıdır. Bu riski minimuma endirmək məqsədilə tədqiqatda istifadə olunan elementlər mövcud akademik ədəbiyyat, beynəlxalq hesabatlar və Balkan regionunun empirik təhlükəsizlik təcrübəsi əsasında sistemləşdirilmişdir. Beləliklə, SWOT metodunun tətbiqi Balkan regionunun mürəkkəb geosiyasi reallıqlarını strukturlaşdırılmış şəkildə izah etməyə, regional siyasətlərin formalaşdırılması və inteqrasiya proseslərinin analizi üçün etibarlı elmi baza yaratmağa şərait yaradır.

**3.Balkan Regionunun Güclü Tərəfləri (Strengths)**

Balkan regionunun strateji üstünlükləri onun əlverişli coğrafi mövqeyi, qlobal enerji sistemindəki tranzit rolu, zəngin mədəni-etnik palitrası və beynəlxalq təhlükəsizlik institutları ilə inteqrasiya dərəcəsinin vəhdətindən formalaşır. Avropanın cənub-şərqində, Aralıq dənizi hövzəsinə uzanan kritik bir nöqtədə yerləşən bu yarımada qitənin mərkəzi hissəsi ilə Asiya, Yaxın Şərq və Şimali Afrika arasında təbii bir "strateji qapı" və "körpü" funksiyasını yerinə yetirir [Zeljkovic, 2010. Səh.4]. Türkiyə xarici siyasətində "Strateji dərinlik" kursunun müəllifi Əhməd Davudoğlunun da qeyd etdiyi kimi, Avrasiyadan Aralıq dənizinə qədər uzanan bu geosiyasi qurşaq Şərq və Qərb sivilizasiyalarını qovuşduran dünyanın ən mühüm zonalarından biridir [Davutoğlu, 2004. Səh.120]. Bu əlverişli mövqe regionun iqtisadi cəlbediciliyini artıraraq xarici investisiya axını, nəqliyyat infrastrukturunun inkişafı və regional inteqrasiya üçün fundamental zəmin yaradır. Bu cəlbediciliyin ən bariz təzahürü kimi Balkanlar Xəzər hövzəsi və digər alternativ mənbələrdən Avropaya yönələn enerji axınlarının əsas keçid marşrutu kimi çıxış edir; xüsusilə Cənub Qaz Dəhlizi, TAP, İon-Adriatik (IAP) və Türk Axını (TürkStream) kimi layihələr regionun qlobal enerji arxitekturasındakı rolu həlledici dərəcədə gücləndirir.

Eyni zamanda, region cənub slavyanları, rumınlar, türklər, albanlar, yunanlar və bolqarlar kimi müxtəlif etnik qrupların məskunlaşdığı yerdir. Bu qruplar arasında say baxımından xüsusilə slavyanlar, rumınlar, türklər və albanlar üstünlük təşkil edir [Kurt, 2012. Səh.496-498]. Bu müxtəliflik Balkanları mədəni baxımdan zəngin və dinamik bir məkan halına gətirir. Eləcə də Balkanlarda ən böyük qrupu pravoslav xristianlar təşkil edir. Yunanlar, serblər, bolqarlar, makedonlar, rumınlar və qaradağlılar bu qrupa daxildir. Müsəlmanlar regionda ikinci böyük dini qrupdur. Türk, boşnak və alban icmaları bu qrupun əsas hissəsini təşkil edir. Üçüncü böyük dini qrup isə katolik xristianlardır və bu din slovenlər, xorvatlar və macarlar arasında yayılmışdır. Bu qrup əsasən Xorvatiya, Sloveniya, Bosniya və Herseqovina, həmçinin Serbiya və Rumıniyanın bəzi bölgələrində məskunlaşmışdır [Karpat, 1993. Səh.27]. Bu etno-konfessional rəngarənglik düzgün idarə edildiyi təqdirdə turizm, mədəni diplomatiya və sosial inteqrasiya üçün mühüm potensial daşıyır.

Son olaraqda, region dövlətlərinin NATO və Avropa İttifaqı (Aİ) ilə qurduğu dərin əlaqələr Qərbin Balkanlardakı geosiyasi maraqlarına söykənsədə sabitliyin təminatçısı kimi çıxış edir. Buna görə də Qərbi Balkan dövlətləri arasında Serb millətçiliyindən qaynaqlanan ixtilafların aradan qaldırılması və regionda etibarlı təhlükəsizlik mühitinin bərqərar olması istiqamətində NATO və Aİ-yə üzvlük prosesi həlledici addımlar hesab olunur [Beqa, 2022. Səh.9]. Alyansın regiondakı aktiv hərbi mövcudluğu və sülhməramlı mexanizmləri regionda təhlükəsiz mühiti qorumaqla yanaşı, kənar güclərin (xüsusilə Rusiya) regiondakı hərbi-siyasi təsirini balanslaşdıran strateji bir sipər funksiyasını yerinə yetirir. Bundan əlavə, NATO-nun 2022-ci il Madrid Sammitində qəbul edilən "Strateji Konsept" [NATO, 2022] sənədində Qərbi Balkanların "strateji əhəmiyyətinin" rəsmən təsbit edilməsi, əslində Alyansın regionu öz təsir dairəsində saxlamaq və rəqib geosiyasi aktorların (Rusiya və Çin) boşluqlardan istifadə etməsinin qarşısını almaq marağını əks etdirir. Eyni şəkildə, Aİ-yə üzvlük perspektivi də bir tərəfdən demokratik islahatların katalizatoru olsa da, digər tərəfdən Brüsselin Balkanları öz iqtisadi və normativ orbitinə çəkmək strategiyasının tərkib hissəsidir [EUFOR Althea, 2026]. Missiyaları vasitəsilə regionda hərbi və hüquqi nəzarəti saxlaması, Balkanlarda yaranacaq hər hansı bir qeyri-sabitliyin birbaşa Avropanın daxili təhlükəsizliyinə (miqrasiya, mütəşəkkil cinayətkarlıq və s.) təhdid yaratması reallığına əsaslanır. Bu baxımdan, Aİ və NATO-nun bura sülh gətirmək səyləri həm də regionu vahid bir Qərb təhlükəsizlik arxitekturasına inteqrasiya edərək geosiyasi riskləri minimuma endirmək marağı ilə şərtlənir.

Beləliklə, coğrafi üstünlüklər, enerji tranziti imkanları və beynəlxalq əlaqələrin sintezi Balkanların gələcək inkişaf trayektoriyası üçün etibarlı və güclü bir strateji baza təşkil edir.

## 4.Balkan Regionunun Zəif Tərəfləri (Weaknesses)

Balkan regionunun daxili struktur zəiflikləri tarixi irs, mürəkkəb coğrafi xüsusiyyətlər, institusional çatışmazlıqlar və dərin sosial-iqtisadi disbalanslarla xarakterizə olunur. "Balkan" termininin "dağ" və ya "sıradağ" mənasını ifadə etməsi coğrafi reallığını əks etdirir [Jelavich, 2006. Səh.1]. Bu yarımadanın dağlıq relyefi onun tarixən nəqliyyat və kommunikasiya imkanlarını məhdudlaşdıran əsas struktur zəifliyidir.

Coğrafi çətinliklərlə yanaşı, Balkanların tarix boyunca Avropa ilə Asiya arasında keçid zonası kimi çıxış etməsi onun strateji əhəmiyyətini artırmaqla yanaşı, eyni zamanda zəiflik mənbəyinə də çevrilmişdir. Bu xüsusiyyət yarımadanı, adətən, böyük güclərin rəqabət sahəsinə çevirmişdir. Elə buna görə də Balkan yarımadası müxtəlif tədqiqatçılar tərəfindən Avropanın "barıt çəlləyi" kimi metaforalarla xarakterizə edilmişdir [Castellan, 1995. Səh.15]. Bu struktur xüsusiyyət Balkanlarda uzunmüddətli sabitliyin əldə olunmasını çətinləşdirən amillərdən biri kimi qalmaqdadır.

Sözügedən qeyri-sabitlik regionun etnik və dini parçalanmaları ilə birləşdikdə daha da dağıdıcı olur. Xüsusilə, Bosniya və Herseqovina, Kosovo və Şimali Makedoniya kimi ölkələrdə milli konsensusun formalaşmasını əngəlləyir. Ümumilikdə Balkan yarımadası mövcud daxili müxtəlifliyini Osmanlı idarəçiliyi dövründə nisbi sabitlik və sülh şəraitində qoruya bilsə də, XIX əsrdən etibarən regionda vüsət alan millətçilik hərəkatları və xarici müdaxilələr nəticəsində vahid təhlükəsizlik mühiti pozulmuşdur [Yenigün, 2008. Səh.502]. XX əsrin sonlarında isə Yuqoslaviyanın dağılması ilə müşayiət olunan müharibələr regionu "*münaqişə ocağı*na" çevirdi [Akman, 2006. Səh.106]. Bu münaqişələrin buraxdığı kollektiv travmalar və sosial-psixoloji izlər cəmiyyətlərdə etimadsızlığı artıraraq siyasi radikalizm üçün zəmin yaradıb.

İnstitusional müstəvidə isə sistematik korrupsiya və hüququn aliliyinin zəifliyi ən ciddi maneədir; belə ki, 2025-ci il Korrupsiyanın Qavranılması İndeksində Bosniya və Herseqovinanın 180 ölkə arasında 114-cü yerə düşməsi, Serbiya və Şimali Makedoniyadakı geriləmələr dövlət idarəçiliyindəki şəffaflıq böhranını təsdiqləyir [Stojanovic, 2025].

Bununla yanaşı, kütləvi mühacirət və "beyin axını" demoqrafik tənəzzülü də sürətləndirir; Xorvatiyanın Aİ üzvlüyündən sonra əhalisinin 10%-ni itirməsi faktı göstərir ki, ixtisaslı kadrların miqrasiyası regionun rəqabət qabiliyyətini və struktur transformasiyasını ləngidir [Jansen, Bernstein, Van Hecke, 2024. Səh.2-5]. Bundan əlavə, Serbiya-Kosovo münasibətlərindəki gərginlik və digər delimitasiya problemləri regional sabitlik üçün ciddi çağırış olaraq qalır və regionun mövcud strateji potensialından səmərəli istifadə etməsini məhdudlaşdıran fundamental daxili zəifliklər kimi qalmaqdadır.

Nəticə etibarilə, Balkanların daxili struktur zəiflikləri bir-birini qidalandıraraq regionun strateji potensialını daxildən sarsıdır və onu xarici manipulyasiyalara qarşı həssas qoyur.

## 5.Balkan Regionunun İmkanları (Opportunities)

Balkan regionu mövcud daxili struktur çətinliklərinə rəğmən, qlobal geosiyasi transformasiyalar və regional iqtisadi meyllər fonunda geniş inkişaf perspektivlərinə malikdir. Bu imkanların başında Avropa İttifaqına inteqrasiya prosesi dayanır ki, bu da region dövlətləri üçün həm demokratiyanın möhkəmlənməsi, həm də hüququn aliliyinin təmin edilməsi istiqamətində fundamental bir hərəkətverici qüvvə rolunu oynayır. Aİ-nin normativ standartlarına uyğunlaşma cəhdləri regional münaqişələrin sülh yolu ilə həllini sürətləndirməklə yanaşı, Balkanların beynəlxalq arenada daha proqnozlaşdırıla bilən və stabil bir aktor kimi tanınmasına şərait yaradır. Paralel olaraq, regional əməkdaşlıq platformaları, xüsusilə Mərkəzi Avropa Azad Ticarət Sazişi (CEFTA) çərçivəsində 2006-cı ildə imzalanmış CEFTA-nın əsas missiyası iştirakçı ölkələrin iqtisadi inkişafını dəstəkləmək,

investisiya üçün cəlbedici mühit yaratmaq, biznes və vətəndaşlar üçün imkanları genişləndirmək və üzv ölkələrin Aİ-yə inteqrasiya prosesini sürətləndirməkdir [CEFTA, 2026]. Berlin Prosesi kimi təşəbbüslər isə infrastruktur layihələrinin koordinasiyası və ticarət maneələrinin aradan qaldırılması vasitəsilə regiondaxili etimadı gücləndirir.

Geoiqtisadi müstəvidə enerji və logistika layihələrinin genişlənməsi Balkanların tranzit əhəmiyyətini yeni müstəviyə daşıyır. Bu xüsusda Xəzər və Yaxın Şərq enerji resurslarının Avropaya nəqli regiona həm iqtisadi dividendlər qazandırır, həm də infrastrukturun modernləşdirilməsinə təkan verir. Mərkəzi və Şərqi Avropanı birləşdirən, 35-dən çox limanı ilə iqtisadi fəaliyyətə xidmət edən 815.800 km²-lik hövzəyə malik olan Dunay çayı hövzəsi regionun qlobal ticarət şəbəkələrinə inteqrasiyasında strateji logistika arteriyası funksiyasını yerinə yetirir [Türbedari, 2004. Səh.34].

İqtisadi və fiziki infrastrukturun inkişafı ilə paralel olaraq, müasir dövrün gətirdiyi rəqəmsal transformasiya və gənc əhalinin texnoloji potensialı korrupsiya ilə mübarizədə şəffaflığı artırmaq və innovativ iqtisadi modelə keçid üçün əlverişli mühit formalaşdırır. Kiber təhlükəsizlik sahəsindəki institusional güclənmə isə regionun uzunmüddətli dayanıqlığını artıran vacib faktordur.

Beləliklə, qeyd olunan inteqrasiya, əməkdaşlıq və texnoloji yenilənmə imkanlarının səmərəli reallaşdırılması Balkanların struktur zəifliklərini kompensasiya edərək onu qlobal sistemin nüfuzlu bir hissəsinə çevirə bilər.

## 6.Balkan Regionunun Təhlükələri (Threats)

Balkan regionunun geosiyasi mövqeyi onu yalnız strateji imkanlar mərkəzi deyil, həm də təhdidlərin kəsişdiyi həssas bir zona halına gətirir. Tarix boyu Avropa, Yaxın Şərq və Avrasiya arasında böyük güclərin rəqabət meydanına çevrilən bu məkan, müasir dövrdə həm klassik hərbi-siyasi, həm də qeyri-ənənəvi təhlükəsizlik riskləri ilə üz-üzədir. Regionun təhlükəsizlik mühitini təhdid edən ən mühüm faktor ABŞ, Rusiya, Aİ və Çin arasındakı artan geosiyasi rəqabətdir; fərqli aktorların ziddiyyətli strateji maraqları Balkan ölkələrinin daxili siyasətinə təsir edərək vahid təhlükəsizlik arxitekturasının qurulmasını çətinləşdirir. Nəticədə region yenidən böyük güclərin rəqabət məkanına çevrilmək riski ilə üz-üzə qalır [Zeljkovic,2010. Səh.4]. Regionun təhlükəsizlik mühitində Çinin iqtisadi ekspansiyası xüsusi risk faktoru kimi çıxış edir. 2012-ci ildə Varşava sammiti ilə təməli qoyulan “16+1 Platforması” (sonradan “17+1”) və "Bir Kəmər, Bir Yol" təşəbbüsü, region ölkələri ilə Çin arasında iqtisadi-mədəni əməkdaşlığı institusiallaşdırmışdır [Shaohua, 2019. Səh.78]. Çinin "Bir Kəmər, Bir Yol" təşəbbüsü çərçivəsində tətbiq etdiyi iqtisadi ekspansiya və ayırdığı irihəcmli kreditlər region dövlətlərini "borc tələsi" strategiyasının qurbanına çevirərək onların suverenliyini və Avropa inteqrasiyası yolunda manevr imkanlarını məhdudlaşdırır.

Xarici təhdidlərlə yanaşı, daxili siyasi qeyri-müəyyənliklər də regional sabitliyi sarsıdır. Beləki, Kosovonun statusu ilə bağlı qeyri-müəyyənlik və Bosniya və Herseqovinadakı separatizm meylləri dövlət institutlarının legitimliyini zəiflədən əsas siyasi risklər kimi qalmaqdadır. Bu cür problemlər yalnız daxili sabitliyə deyil, həm də regional təhlükəsizlik mühitinə mənfi təsir göstərərək yeni münaqişə risklərini canlı saxlayır. Yuqoslaviyanın dağılmasından miras qalan və hələ də həllini tapmayan sərhəd mübahisələri - Məsələn, Xorvatiya ilə Sloveniya arasında Piran körfəzi üzrə mübahisə, Xorvatiya ilə Serbiya arasında Dunay çayı boyunca sərhəd problemləri, eləcə də Bosniya və Herseqovinanın qonşu dövlətlərlə delimitasiya məsələləri hələ də tam həll olunmamışdır. Bu kimi problemlər siyasi konsensusun formalaşmasını çətinləşdirir və potensial münaqişə risklərini artırır [İNSAMER, 2018].

Müasir dövrün digər bir təhlükəsi isə kiber və informasiya məkanında özünü göstərir; Dezinformasiya kampaniyaları və informasiya manipulyasiyası cəmiyyət daxilində mövcud etnik və siyasi parçalanmaları dərinləşdirir, ictimai etimadı zəiflədir və demokratik proseslərin legitimliyini sarsıdır 2025-ci il tədqiqatlarına görə, xüsusilə Bosniya və Herseqovina, Serbiya və Albaniya kiber təhlükəsizlik baxımından Avropada ən həssas ölkələr sırasındadır [EuroNews, 2025].

Regionda yalnız fiziki sərhədlər deyil, həm də rəqəmsal məkan ciddi təhdid altındadır. Xüsusilə xarici dövlətlərin dəstəklədiyi dezinformasiya kanalları etnik nifrəti alovlandırır və regionun Aİ-yə inteqrasiya istəyini sarsıdır. Bu cür manipulyasiyalar etnik nifrəti alovlandıraraq cəmiyyətdəki parçalanmaları dərinləşdirir və demokratik proseslərin legitimliyini sarsıdır. Sosial-iqtisadi tənəzzül və zəif idarəçilik fonunda yaranan radikallaşma və dini ekstremizm riskləri isə Balkanları beynəlxalq terrorizm kontekstində potensial risk zonasına çevirir.

Nəticə etibarilə, Balkan regionunda mövcud təhlükələr həm tarixi mirasdan qaynaqlanan struktur problemlərlə, həm də müasir geosiyasi və texnoloji transformasiyalarla sıx bağlıdır. Bu risklər regionun zəif tərəfləri ilə qarşılıqlı təsirə girərək çoxölçülü və dinamik təhlükəsizlik mühiti formalaşdırır.

**7.Nəticə**

Aparılan kompleks SWOT təhlili sübut edir ki, Balkan regionu yüksək strateji potensiala malik olmasına baxmayaraq, bu imkanların dayanıqlı inkişafa transformasiyası dərin daxili struktur və siyasi məhdudiyyətlərlə qarşılaşır. Regionun əlverişli geostrateji mövqeyi, qlobal enerji-nəqliyyat qovşağındakı həlledici rolu və Avratlantik təhlükəsizlik arxitekturasına inteqrasiya səviyyəsi onu Avropa təhlükəsizliyinin mühüm komponentinə çevirsə də, zəif dövlət institutları və etnik-dini fragmentasiya bu üstünlüklərin tam realizasiyasını əhəmiyyətli dərəcədə ləngidir.

Tədqiqat göstərir ki, Balkanların əsas problemi resurs və ya imkan çatışmazlığı deyil, mövcud potensialın qeyri-effektiv idarəetmə mexanizmləri səbəbindən strateji dividentlərə çevrilə bilməməsidir. Etnik əsaslı siyasi strukturlar və institusional zəifliklər regionu xarici aktorların manipulyasiyasına açıq qoyur, onu ABŞ, Rusiya, Çin və Aİ kimi böyük güclərin rəqabət poliqonuna çevirərək "ikili təhlükəsizlik zonası" statusuna salır. Avropa İttifaqına üzvlük perspektivi mühüm bir "imkan pəncərəsi" yaratsa da, bu prosesin formal xarakter daşımaması üçün hüququn aliliyi və şəffaf idarəetmə islahatlarının dərinləşdirilməsi qaçılmazdır. Uzunmüddətli sabitliyin bərqərar olması etnik barışıq proseslərinin inklüziv siyasi institutlarla dəstəklənməsindən və sosial inteqrasiyanın gücləndirilməsindən birbaşa asılıdır.

Nəticə etibarilə, Balkanların gələcək trayektoriyası region dövlətlərinin böyük güclərin rəqabətində passiv geosiyasi obyekt deyil, öz strateji taleyini idarə edən aktiv subyektlər kimi çıxış etməsini zəruri edir. Əks təqdirdə, mövcud zəifliklər və təhlükələr üstün mövqeyə keçərək Balkanları davamlı qeyri-sabitlik spiralına sürükləyə bilər. Beləliklə, Balkan yarımadası yalnız keçmiş münaqişələrin mirası kimi deyil, düzgün idarəetmə və beynəlxalq koordinasiya şəraitində Avropa təhlükəsizliyi üçün həlledici strateji imkanlar məkanı kimi qiymətləndirilməlidir.

## 8.ƏDƏBİYYAT

1. Akman, H. (2006). *Paylaşılamayan Balkanlar*. İstanbul: IQ Kültür Sanat Yayıcılık, 352 s.
2. İNSAMER. (2018, Temmuz 4). *Balkanlar'da çözüm bekleyen sınır sorunları*. Erişim adresi: https://www.insamer.com/tr/?output=pdf&type=post&id=4288 [Mart 23, 2025]
3. Beqa, M. (2022). The Future is Cooperative!? Perceptions and Reality from the Western Balkans. *Center for the Study of Democracy and Governance Journal*, *1*(2), pp.1–24.
4. Castellan, G. (1995). *Balkanların tarihi 14.–20. yüzyıl* (A. Yaraman, Terc.). İstanbul: Milliyet Yayınları, 520 s.
5. CEFTA. (2026). Erişim adresi: https://cefta.int/about/ [Mart 25, 2026]
6. Chermack, T. J. & Kasshanna, B. K. (2007). The use and misuse of SWOT analysis and implications for HRD professionals. *Human Resource Development International*, *10*(4), pp.383–399.
7. Davutoğlu, A. (2004). *Stratejik derinlik: Türkiye'nin uluslararası konumu*. İstanbul: Küre Yayınları, 584 s.

**8.** Ekinci, D. (2012). Balkan coğrafyasının temel jeopolitik özellikleri. In *I. Uluslararası Balkan Kongresi (Eylül 24–26, 2012)*. İstanbul: Süleyman Şah Üniversitesi Yayınları, ss.1281–1304.

**9.** European External Action Service (n.d.). *EU military operation in Bosnia and Herzegovina (Operation EUFOR ALTHEA)*. Retrieved from https://eeas.europa.eu/archives/docs/csdp/missions-and-operations/althea-bih/pdf/factsheet_eufor_althea_en.pdf [March 25, 2026]

**10.** Jansen, L., Bernstein, L. & Van Hecke, S. (2024). Navigating brain drain in the Western Balkans. *European View*, *23*(1), pp.1–8.

**11.** Jelavich, B. (2006). *Balkan tarihi: 18. ve 19. yüzyıllar* (İ. Emin, Terc.). İstanbul: Küre Yayınları, 449 s.

**12.** Karpat, K. H. (1993). Balkan coğrafyası. In *İslam Ansiklopedisi* (Cilt 8). İstanbul, ss.25–32.

**13.** Kurt, H. (2012). Balkan ülkelerinde nüfusun etnik ve dini yapısı. In *Uluslararası Balkan Sempozyumu*. İstanbul, ss.492–516.

**14.** NATO (2023, March 3). *NATO 2022 Strategic Concept*. Retrieved from https://www.nato.int/en/about-us/official-texts-and-resources/strategic-concepts/nato-2022-strategic-concept [March 24, 2026]

**15.** Stojanovic, M. (2025, February 11). Public perceptions of corruption in Balkans continue to worsen: Report. *BalkanInsight*. Retrieved from https://balkaninsight.com/2025/02/11/public-perceptions-of-corruption-in-balkans-continue-to-worsen-report/bi/ [March 22, 2026]

**16.** Yan, S. (2019). The ‘16+1’ framework and China–EU cooperation in the Western Balkans: A region building perspective. *Australian and New Zealand Journal of European Studies*, *11*(1), pp.76–88.

**17.** EuroNews. (2025, Şubat 20). *Siber güvenlik tehdit altında: Avrupa'nın en savunmasız ülkeleri hangileri?* Erişim adresi: https://tr.euronews.com/my-europe/2025/02/20/siber-guvenlik-tehdit-altinda-avrupanin-en-savunmasiz-ulkeleri-hangileri [Mart 22, 2026]

**18.** Todorova, M. (2006). *Balkanları tahayyül etmek* (D. Şendil, Terc.). İstanbul: İletişim Yayınları, 444 s.

**19.** Türbedari, E. (2004). *Güneydoğu Avrupa ülkelerinde iktisadi dönüşüm süreçleri: Bulgaristan ve Romanya örnekleri* (Yayımlanmamış yüksek lisans tezi). Ankara: Gazi Üniversitesi, 148 s.

**20.** Yenigün, C. (2008). Balkanlar’da otokton Türk varlığı. In *Uluslararası Balkan Kongresi*. İstanbul: TASAM Yayınları, ss.501–515.

**21.** Zeljkovic, N. (2010). Clash of interests on Balkans between USA, Russia, Turkey and the EU. In *Moscow Conference on Geopolitics: Connecting Geography to Politics: 21st Century Issues and Agendas*, pp.1–27.

## REFERENCES


1. Akman, H. (2006). *The Balkans that could not be shared*. Istanbul: IQ Kultur Sanat Yayincilik, 352 p. (in Turkish)
2. INSAMER (2018, July 4). *Border disputes awaiting solution in the Balkans*. Retrieved from https://www.insamer.com/tr/?output=pdf&type=post&id=4288 [March 23, 2025] (in Turkish)
3. Beqa, M. (2022). The Future is Cooperative!? Perceptions and Reality from the Western Balkans. *Center for the Study of Democracy and Governance Journal*, *1*(2), pp.1–24. (in English)
4. Castellan, G. (1995). *History of the Balkans: 14th–20th centuries* (A. Yaraman, Trans.). Istanbul: Milliyet Yayinlari, 520 p. (in Turkish)
5. CEFTA (2026). Retrieved from https://cefta.int/about/ [March 25, 2026] (in English)
6. Chermack, T. J. & Kasshanna, B. K. (2007). The use and misuse of SWOT analysis and implications for HRD professionals. *Human Resource Development International*, *10*(4), pp.383–399. (in English)
7. Davutoglu, A. (2004). *Strategic depth: Turkey's international position*. Istanbul: Kure Yayinlari, 584 p. (in Turkish)
8. Ekinci, D. (2012). Basic geopolitical characteristics of the Balkan geography. In *1st International Balkan Congress (September 24–26, 2012)*. Istanbul: Suleyman Sah University Publications, pp.1281–1304. (in Turkish)
9. European External Action Service (n.d.). *EU military operation in Bosnia and Herzegovina (Operation EUFOR ALTHEA)*. Retrieved from https://eeas.europa.eu/archives/docs/csdp/missions-and-operations/althea-bih/pdf/factsheet_eufor_althea_en.pdf [March 25, 2026] (in English)
10. Jansen, L., Bernstein, L. & Van Hecke, S. (2024). Navigating brain drain in the Western Balkans. *European View*, *23*(1), pp.1–8. (in English)
11. Jelavich, B. (2006). *History of the Balkans: 18th and 19th centuries* (I. Emin, Trans.). Istanbul: Kure Yayinlari, 449 p. (in Turkish)
12. Karpat, K. H. (1993). Balkan geography. In *Encyclopaedia of Islam* (Vol. 8). Istanbul, pp.25–32. (in Turkish)
13. Kurt, H. (2012). Ethnic and religious structure of the population in Balkan countries. In *International Balkan Symposium*. Istanbul, pp.492–516. (in Turkish)
14. NATO (2023, March 3). *NATO 2022 Strategic Concept*. Retrieved from https://www.nato.int/en/about-us/official-texts-and-resources/strategic-concepts/nato-2022-strategic-concept [March 24, 2026] (in English)

**15.** Stojanovic, M. (2025, February 11). Public perceptions of corruption in Balkans continue to worsen: Report. *BalkanInsight*. Retrieved from https://balkaninsight.com/2025/02/11/public-perceptions-of-corruption-in-balkans-continue-to-worsen-report/bi/ [March 22, 2026] (in English)
**16.** Yan, S. (2019). The '16+1' framework and China–EU cooperation in the Western Balkans: A region building perspective. *Australian and New Zealand Journal of European Studies*, *11*(1), pp.76–88. (in English)
**17.** EuroNews (2025, February 20). *Cybersecurity under threat: Which countries in Europe are the most vulnerable?* Retrieved from https://tr.euronews.com/my-europe/2025/02/20/siber-guvenlik-tehdit-altinda-avrupanin-en-savunmasiz-ulkeleri-hangileri [March 22, 2026] (in Turkish)
**18.** Todorova, M. (2006). *Imagining the Balkans* (D. Sendil, Trans.). Istanbul: Iletisim Yayinlari, 444 p. (in Turkish)
**19.** Turbedari, E. (2004). *Economic transformation processes in Southeast European countries: The cases of Bulgaria and Romania* (Unpublished master's thesis). Ankara: Gazi University, 148 p. (in Turkish)
**20.** Yenigun, C. (2008). Indigenous Turkish presence in the Balkans. In *International Balkan Congress*. Istanbul: TASAM Publications, pp.501–515. (in Turkish)
**21.** Zeljkovic, N. (2010). Clash of interests on Balkans between USA, Russia, Turkey and the EU. In *Moscow Conference on Geopolitics: Connecting Geography to Politics: 21st Century Issues and Agendas*, pp.1–27. (in English)